# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/33** **21 sentyabr 2016-cı il**

**Məcburi auditdən yayınmanın qarşısının alınması ilə əlaqədar Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən məcburi auditin obyektləri olan təsərrüfat subyektlərinə göndərilmiş məlumat ilə bağlı əlavə tədbirlər barədə**

Ölkəmizdə şəffaflığın artırılması və maliyyə intizamının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin və məcburi auditdən yayınmanın qarşısının alınmasının zəruriliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən mövcud qanunvericiliyə əsasən məcburi auditin obyektləri olan təsərrüfat subyektlərinin illik maliyyə hesabatlarını müstəqil auditorun rəyi ilə təsdiq etdirmələri tapşırığının icrasında təsərrüfat subyektlərinə Auditorlar Palatası tərəfindən dəstək göstərilməsinin təşkilini təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Təsərrüfat subyektləri tərəfindən daxil olmuş sorğu və zənglərin cavablandırılması, məcburi auditin obyektlərində auditin aparılmasına dair qanunvericiliyə və mövcud normativ hüquqi aktlara uyğun məsləhətlərin verilməsi sayəsində işin təşkili ilə əlaqədar aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

Səbuhi Gülməmmədov – Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi

***İşçi qrupunun üzvləri:***

Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri
Kənan Tağızadə – Auditin təşkili və akkreditasiya şöbəsinin müdir müavini
Nigar Şirinova – Kadr hazırlığı şöbəsinin müdir müavini

2. İşçi qrupuna tapşırılsın ki:
2.1 Məcburi auditdən keçməyə dair daxil olan sorğuların vaxtında və keyfiyyətlə cavablandırılmasını, müvafiq jurnalda qeydiyyatın aparılmasını və mütəmadi olaraq rəhbərliyə məlumatın verilməsini təmin etsinlər.
2.2 Auditorlar Palatası tərəfindən sorğuların cavablandırılması yalnız işçi qrupunun səlahiyyətlərinə aid edilsin.
3. Bu Sərəncamın icrasına nəzarət Auditorlar Palatası sədrinin müavini F.İsmayılova həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**